# Milli Məclisdə görüş

Oktyabrın 26-da Milli Məclisin Sədri Oqtay Əsədov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz regionu üzrə yeni təyin edilmiş xüsusi nümayəndəsi səfir Rudolf Mihalkanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü.

Görüşdə Oqtay Əsədov Azərbaycanın 25 ildən artıq ATƏT-in üzvü olduğunu və bu səfərin də Azərbaycan-ATƏT əlaqələrinin inkişafına töhfə verəcəyinə əminliyini vurğuladı. Qeyd edildi ki, dinamik inkişaf edən, bu gün "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin iştirakçısı olan, eləcə də bir çox mühüm transmilli nəqliyyat layihələrinin təşəbbüskarı olan Azərbaycan coğrafi mövqeyindən istifadə edərək iri transmilli neft və qaz layihələrinin də reallaşmasında fəal iştirak edir.



Sədr Dağlıq Qarabağ problemindən söz açaraq Azərbaycanın ATƏT-in ölkələrarası münaqişələrin sülh yolu ilə həllində rolunu dəstəklədiyini ifadə etdi. Bildirildi ki, Azərbaycan münaqişənin həllində ATƏT-in səylərini artıracağına ümid edir və qurumun təhlükəsizlik missiyasına inanır. Oqtay Əsədov bildirdi ki, Azərbaycan heç bir hərbi bloka daxil deyil. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair bir çox beynəlxalq sənədlər qəbul edilsə də, hələ heç bir irəliləyiş yoxdur. Ancaq Azərbaycan hələ də münaqişənin beynəlxalq hüquq prinsiplərinə uyğun sülh yolu ilə həllinə inamını itirməyib. Prezident İlham Əliyevin söylədiyi kimi, ölkəmizin ərazi bütövlüyü danışıq predmeti olmayıb, olmayacaq da. Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişinə toxunan Oqtay Əsədov noyabr ayında bununla bağlı danışıqlar prosesinin növbəti raundunun baş tutacağını və sazişin tez bir zamanda imzalanacağını dedi.

Səmimi qəbul üçün minnətdarlığını bildirən səfir Rudolf Mihalka Azərbaycan haqqında kifayət qədər məlumatlı olduğunu söylədi. Səfir bildirdi ki, yeganə məqsədi münaqişənin sülh yolu ilə həllinə kömək etmək və münasibətlərin inkişafı yönündə addımlar atmaqdır.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

*Fərizə ƏHMƏDOVA,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*